# 2 Fevral Azərbaycan Gəncləri Günüdür

***Qəbələ Rayon Gənclər və İdman İdarəsi 2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə Heydər Əliyev Mərkəzində tədbir keçirmişdir.***

***Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə tər qərənfillər qoymuşlar. Sonra tədbir mərkəzin ekspozisiya zalında davam etmişdir. Tədbirə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən gənclər dəvət olunmuşdu.***



Toplantını rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açaraq bildirib ki, müasir iqtisadi-siyasi, mədəni həyatımızda gənclər böyük çəkiyə malikdir. Bu gün müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam, müstəqil düşüncəyə malik yeni nəsil gənclər yetişməkdədir. Ölkəmizdə düzgün qurulmuş ideya-siyasi işin nəticəsidir ki, bu gün Azərbaycan gəncliyi ulu öndər Heydər Əliyevin siyasətini ardıcıl şəkildə həyata keçirən, onun gerçəkləşdirməyə imkan tapmadığı layihələri tamamlayan Prezident İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyev ideyalarını qoruyur, inkişaf etdirir və dövlətimizin tərəqqisi naminə öz bacarıqlarını əsirgəmirlər. Sonra gənclər və idman idarəsi rəisinin müavini Müşviq Abbasov təşkilatda 2016-cı ildə görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə etmişdir.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və bu günkü bayramın ulu öndər tərəfindən gənclərə ərmağan olduğunu qeyd etdi. Ətayə Osmanova çıxışında möhtərəm Prezidentimizin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan, aparılan sistemli işin nəticəsi olaraq Azərbaycanda sağlam fikirli gəncliyin yetişməsindən danışaraq, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbrikini gənclərə çatdırdı.

Tədbirdə YAP Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin sədri Namiq Ağayev, Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyinin əməkdaşı Mehrab Səhrablı, uşaq-gənclər idman məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək ulu öndərin Azərbaycan gəncliyinə göstərmiş olduğu diqqət və qayğıdan, Azərbaycanda gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən və çalışdıqları sahədə görülən işlərdən danışmışlar.

Ənənəvi hal olaraq tədbirin sonunda 2016-cı ildə müxtəlif sahələr üzrə işlərində nailiyyət qazanmış bir qrup fəal gənc fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırılmışdır.

**Məhəmmədəli Səfərçinov,**
**gənclər və idman idarəsinin**
**baş məsləhətçisi.**

# Uğurla davam etdirilir

***Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə olduğu kimi, su ehtiyatlarının idarə olunması, həmçinin insanların və ərazilərin təbii fəlakətlər zamanı təhlükəsizliyinin təmin edilməsi, təbii sərvətlərdən səmərəli istifadəsi məsələlərinə daim xüsusi qayğı ilə yanaşmışdır. Ulu öndərin müəyyənləşdirdiyi düşünülmüş, məqsədyönlü sosial-iqtisadi strategiyaya əsaslanan islahatların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi sayəsində ölkəmizdə təbii fəlakətlərin və texnogen mənşəli qəzaların nəticələrinin aradan qaldırılması, suların idarə edilməsi sektorunda çoxsaylı layihələrin reallaşdırılması mümkün olmuşdur.***

Bunlardan biri də BMT-nin İnkişaf Proqramı və Azərbaycan Fövqəladə Hallar Nazirliyinin birgə həyata keçirdiyi "Böyük Qafqaz regionunda zəif dağ icmaları tərəfindən su və daşqınlar üzrə idarəetməyə iqlim dəyişikliyi risklərinin daxil edilməsi" layihəsidir. 2012-ci ildən həyata keçirilən bu layihə su və daşqınlar üzrə idarəetməni təkmilləşdirməklə Azərbaycanın Böyük Qafqaz regionundakı dağ icmalarının su çatışmazlığı, sel və daşqın təhlükələrinə qarşı zəifliyinin azaldılmasından ibarət olmuşdur.

Layihə çərçivəsində Qəbələ rayonunda bir neçə dəfə "Suların İnteqrasiyalı İdarə edilməsi iqlim dəyişikliklərinə uyğunlaşdırmanın aləti kimi", "İcma əsaslı erkən xəbərdarlıq sistemləri və icmaların su ilə bağlı yarana biləcək problemlərə hazırlığı", "Daşqınlara qarşı icma əsaslı erkən xəbərdarlıq sistemi" və s. mövzularda keçirilmiş təlimlərdə iştirakçılar iqlim dəyişikliyi haqqında məlumatlandırılıb və bunun təsirinin azalması istiqamətində ətraflı müzakirələr aparılıb. Eyni zamanda Su Ehtiyatlarının İnteqrasiyalı İdarəetməsi modeli və ondan istifadə vasitələri haqqında ətraflı maarifləndirildilər.

Qəbələ rayonu ərazisində avtomat metroloji və hidroloji məlumatların əldə edilməsi məqsədilə xüsusi məntəqələr quraşdırılmış və bu məntəqələrdən əldə olunan məlumatlara əsasən sel və daşqınların proqnozlaşdırılması üzrə baza formalaşdırılmışdır.

Layihənin davamı olaraq yanvarın 27-də FHN-nin Şimal-qərb Regional Mərkəzində Bum, Mıxlıqovaq, Tikanlı, Çığatelli kəndlərinin icra nümayəndələri, bələdiyyə sədrlərinin iştirakı ilə toplantı keçirilmiş, onlara sel və daşqınların törətdiyi fəsadlar zamanı kənd icması tərəfindən ilkin cavab vermə tədbirlərinin həyata keçirilməsi məqsədilə xüsusi təyinatlı alət və avadanlıqlar paylanımış, həmçinin Mərkəzin əməkdaşları tərəfindən alət və avadanlıqlardan istifadə qaydaları üzrə praktiki məşqələ keçirilmişdir.

Layihənin ilboyu davam etdirilməsi nəzərdə tutulmuşdur.

**Tural AĞAYEV,**
**FHN-nin Şimal-qərb Regional Mərkəzinin ərazi orqanları ilə iş şöbəsinin rəisi, daxili xidmət kapitanı.**

# Tariximizin şanlı səhifəsi

**(Əvvəli ötən saylarımızda).**

Uzun çəkişmələrdən sonra İran Azərbaycan ərazisində yeni işğallar apara bilməyəcəyini yəqin edir və sülh danışıqlarına başlayır. 1813-cü ildə oktyabrın 13-də axır ki, neçə vaxtdan bəri Azərbaycanı bölüşdürmək uğrunda Iranla Rusiyanın istəkləri baş tutdu.



Müqaviləyə əsasən Şimali Azərbaycan xanlıqları: Quba, Şirvan, Bakı, Gəncə, Qarabağ, Talış Rusiyaya verildi. Müəyyən tarixi bir dövr ərzində Rusiya bu diyarı çapdı, taladı, xalqı kölə vəziyyətinə saldı. Nəfsi iti olan İran dövləti 1825 ci il Rusiya ərazisindəki dekabristlər üsyanından istifadə edərək müharibə elan etmədən 1826-cı ilin yayında Azərbaycana daxil olur. İran qoşunları Şuşanı mühasirəyə alır, rus qoşunları isə Naxçıvanı işğal edirlər. Rusların talançı yürüşlərinin qarşısını ala bilməyəcəyini görən İran sülh danışıqlarına başlayır. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə saat 12-də Türkmənçay kəndində "Türkmənçay müqaviləsi" imzalanır. Bu ədalətsiz müqaviləyə əsasən Rusiya Naxcıvan və İrəvan daxil olmaqla Şimali Azərbaycan torpaqlarına sahib oldu. Bu çirkin, ədalətsiz müqavilə xalqımızın tarixində ən böyük faciə qara, ləkə olduğu üçün biz tariximizin bu səhifəsini qara səhifə adlandırırıq. Azərbaycanın işğalında rusların sədaqətli nökərləri olan ermənilərin də böyük rolu olmuşdur. Rus çarı I Nikolay onların bu "böyük əməyini" layiqincə qiymətləndirərək 1828-ci il 21 mart tarixli fərmanı ilə Naxçıvan və İrəvan xanlıqlarını ləğv edərək "erməni vilayəti "adlandırır. Paskeviç, rus şairi Qriboyedov Türkmənçay müqaviləsinə belə bir maddə əlavə etdirirlər ki, İran ərazisindəki ermənilər Azərbaycana köçürülsünlər.

**(Ardı gələn sayımızda).**

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi polis orqanlarında vakant olan orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə

**ELAN EDİR**

Respublikanın şəhər, rayon polis idarə və şöbələrində /Naxçıvan MR, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ orta rəis heyəti vəzifələrinə hüquqşünas ixtisaslı mütəxəssislərin xidmətə qəbulu ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 150 vəzifənin (o cümlədən yalnız qadınlar üçün 10 yetkinlik yaşına çatmayanların işləri üzrə inspektor vəzifəsi) tutulması ilə əlaqədar keçirilən müsabiqə müsahibədən və test imtahanından ibarətdir. Müsahibə – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə, test imtahanları – müsahibədən müvəffəqiyyətlə keçmiş namizədlərlə daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə, insan hüquq və azadlıqlarına dair beynəlxalq aktlara aid, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən proqram və onu əhatə edən suallar üzrə Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış (xarici dövlətlərin təhsil müəssisələrinin yalnız əyani şöbəsini bitirmiş və ixtisasları Azərbaycan Respublikasında tanınmış), yaşı 28-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan yalnız subay namizədlər respublikanın rayonlarında yaşayış şəraitləri nəzərə alınmaqla müsabiqəyə buraxılacaqlar.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər mia.gov.az/?/az/content/29779/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydiyyata götürülməsi barədə elektron poçt vasitəsi ilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis idarələrinə, şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet;
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2017-ci il fevral ayının 03-dən mart ayının 03-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 18-dək şəhər, rayon polis idarə və şöbələrində qəbul olunur.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları:***
**(012) 590-95-23; (012) 590-93-64.**

**DİN-in Baş Kadrlar İdarəsi.**